# TƏHSİL SƏNƏDLƏRİNİN ALINMASI, PAYLANMASI, SAXLANMASI VƏ TANINMASI İŞİ SAHƏSİ ÜZRƏ 2012-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

**I. Təhsil sənədlərinin tanınması işi üzrə.** Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci ilin aprel ayında Azərbaycan Respublikası «Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Lissabon Konvensiyasına» imza atmışdır. Ölkə Prezidentinin 06 mart 2000-ci il tarixli 346 №-li «Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Sərəncamı ilə Azərbaycan Respublikası yuxarıda qeyd olunan Konvensiyaya qoşulmuş və onun icrası Təhsil Nazirliyinə həvalə olunmuşdur.

Bu Sərəncama və müvafiq Konvensiyanın müddəalarına əsasən hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13.05.2003-cü il tarixli, 64 №-li Qərarı ilə təsdiq edilmiş «Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiya) Qaydalar»nı həyata keçirmək məqsədilə Təhsil Nazirliyinin 27.04.2007-ci il tarixli, 11/182 №-li əmri ilə xarici ölkələrin ali təhsil sahəsində verdiyi ixtisasların tanınması və xarici dövlətdə alınmış təhsilin Azərbaycan Respublikasında qüvvədə olan təhsil standartlarına uyğunluğunun müəyyən edilməsi prosedurunun həyata keçirilməsi ilə bağlı Nazirliyin Aparatında Təhsil sənədlərinin tanınması işi üzrə sektor yaradılmışdır.

Sektorun son bir il fəaliyyəti nəticəsində diplomların tanınması və nostrifikasiyası ilə əlaqədar Təhsil Nazirliyinə **1623** müraciət daxil olmuşdur. Müraciət edən vətəndaşların əksəriyyətini MDB-nin müxtəlif ölkələrində və Türkiyədə təhsil alanlar, müəyyən bir qismini isə Avropa, Amerika, Asiya və Ərəb ölkələrinin ali məktəblərinin məzunları təşkil etmişdir.

Sektor tərəfindən bir il ərzində təqdim edilmiş sənədlər arasında **119** qeyri-qanuni fakt aşkarlanmış və onlarla bağlı Azərbaycan Respublikası ərazisində tanınmaması haqqında qərar qəbul olunmuşdur. Sektorun iş fəaliyyəti nəticəsində nostrifikasiya ilə bağlı mənfi cavab alan vətəndaşlar tərəfindən 6 saxta diplomun xarici ölkələrdə qeyri-qanuni yollarla əldə edilməsi sübuta yetirilmişdir. Saxta diplomları verən ölkələr arasında Rusiya Federasiyasını, ABŞ-ı və İsveçrəni göstərmək olar.

Eyni zamanda Təhsil Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin birgə əməkdaşlığı nəticəsində xarici ölkələrdə ali təhsil diplomları əldə etmiş, vətəndaşların, təhsil müddətində dövlət sərhədindən keçmə faktları «Giriş-çıxış» avtomatlaşdırılmış məlumat-axtarış sisteminin bazasında qeydə alınmaması və ya qısa müddət ərzində qeydiyyata alınmasını (həmin ölkələrdə bir neçə gün keçirməklə) sübuta yetirmək mümkün olmuşdur. Həmin məlumatlara və ekspertlərin vətəndaşlarla keçirdiyi görüşlərə əsasən məlum olmuşdur ki, onlar arasında çoxlu sayda formal ali təhsil almış, savadsız və ixtisası haqqında məlumatı olmayan insanlar da var.

Həmçinin mənfi cavab alanlar respublika ərazisində qanunsuz fəaliyyət göstərən xarici ölkələrin ali təhsil müəssisələrinin (məntəqə və filiallar) məzunlarıdır. Onların fəaliyyəti Azərbaycan Respublikasının 1 saylı yerli İqtisad Məhkəməsinin qərarlarına əsasən dayandırılmışdır.

Mənfi cavab alanların arasında:

1. 78 nəfər - Rusiya Federasiyasının ali məktəblərinin məzunları;
2. 34 nəfər - Gürcüstanın ali məktəblərinin məzunları;

3. 6 nəfər - Ukraynanın ali məktəb məzunları;
4. 1 nəfər - Qırğızıstan Respublikasının ali məktəb məzunu vardır.

Ümumiyyətlə, son bir il ərzində sektor tərəfindən 34 iclas keçirilmişdir. Çıxarılan şəxsi işlərin müzakirəsi nəticəsində **1373** müraciət müsbət həll edilmiş və onların sahiblərinə müvafiq şəhadətnamələrin verilməsi haqqında qərarlar qəbul edilmişdir. Şəhadətnamə alanların arasında:

**1.** 572 nəfər - Rusiya Federasiyasının ali məktəblərinin məzunları;
**2.** 206 nəfər - Türkiyə Respublikasının ali məktəblərinin məzunları;
**3.** 206 nəfər - İran İslam Respublikusının ali məktəblərinin məzunları;
**4.** 94 nəfər - Gürcüstanın ali məktəblərinin məzunları;
**5.** 90 nəfər - Ukraynanın ali məktəblərinin məzunları;
**6.** 44 nəfər - Böyük Britaniyanın ali məktəbinin məzunları;
**7.** 28 nəfər - Qazaxıstan Respublikasının ali məktəblərinin məzunları;
**8.** 19 nəfər - ABŞ ali məktəblərinin məzunları;
**9.** 15 nəfər - Almaniya Federativ Respublikasının ali məktəblərinin məzunları;
**10.** 12 nəfər - Qırğızıstan Respublikasının ali məktəbinin məzunları;
**11.** 12 nəfər - Çin Xalq Respublikasının ali məktəbinin məzunları;
**12.** 11 nəfər - Özbəkistan Respublikasının ali məktəblərinin məzunları;
**13.** 5 nəfər - İraq Respublikasının ali məktəblərinin məzunları;
**14.** 5 nəfər - Misir Ərəb Respublikasının ali məktəblərinin məzunları;
**15.** 5 nəfər - Belarusiya Respublikasının ali məktəblərinin məzunları;
**16.** 5 nəfər - Macarıstan Respublikasının ali məktəblərinin məzunları;
**17.** 4 nəfər - Koreya Respublikasının ali məktəblərinin məzunları;
**18.** 3 nəfər - İsveç Krallığının ali məktəblərinin məzunları;
**19.** 3 nəfər - İsveçrənin ali məktəblərinin məzunları;
**20.** 3 nəfər - İtaliyanın ali məktəblərinin məzunları;
**21.** 2 nəfər - Şimali Kipr Türk Respublikasının ali məktəblərinin məzunları;
**22.** 2 nəfər - Moldova Republikanın ali məktəb məzunu;
**23.** 2 nəfər - Fransa Respublikasının ali məktəblərinin məzunları;
**24.** 2 nəfər - Bolqarıstan Respublikasının ali məktəblərinin məzunları;
**25.** 2 nəfər - Tacikistan Respublikasının ali məktəblərinin məzunları;
**26.** 2 nəfər - Avstriyanın ali məktəblərinin məzunları;
**27.** 2 nəfər - Belçikanın ali məktəblərinin məzunları;
**28.** 2 nəfər - Litva Respublikasının ali məktəblərinin məzunları;
**29.** 1 nəfər - Cənubi Afrika Respublikasının ali məktəblərinin məzunları;
**30.** 1 nəfər - Norveç Krallığının ali məktəb məzunu;
**31.** 1 nəfər - İspaniyanın ali məktəb məzunu;
**32.** 1 nəfər - Birləşmiş Ərəb Əmirliyinin ali məktəb məzunu;
**33.** 1 nəfər - Rumıniyanın ali məktəb məzunu;
**34.** 1 nəfər - Yaponiyanın ali məktəb məzunu;
**35.** 1 nəfər - Türkmənistan Respublikasının ali məktəb məzunu;
**36.** 1 nəfər - Kanadanın ali məktəb məzunu;
**37.** 1 nəfər - Niderland Krallığının ali məktəb məzunu;
**38.** 1 nəfər - Hindistanın ali məktəb məzunu;
**39.** 1 nəfər - Tanzaniyanın ali məktəb məzunu;
**40.** 1 nəfər - İordaniya Krallığının ali məktəb məzunu;
**41.** 1 nəfər - Çexiya Respublikasının ali məktəb məzunu;

**42.** 1 nəfər - Pakistan İslam Respublikasının ali məktəb məzunu;
**43.** 1 nəfər - Estoniyanın ali məktəb məzunu.

Diplomların tanınması ilə bağlı müraciət etmiş **131** vətəndaşın işləri bu günə kimi sektor tərəfindən baxılır. Həmin işlərin bu günə kimi baxılmasının səbəbi, vətəndaşlar tərəfindən vaxtı-vaxtında tələb olunan müvafiq sənədlərin təqdim olunmaması və vətəndaşların aldığı ali təhsillə bağlı Gürcüstanın Elm və Təhsil Nazirliyinə göndərilmiş sorğulara cavabların vaxtında verilməməsidir.

Sevindirici haldır ki, ixtisasların tanınması haqqında şəhadətnamələr alanlar arasında uzaq xaricdə, xüsusilə də Avropa və Amerika Birləşmiş Ştatlarının aparıcı ali məktəblərini müvəffəqiyyətlə bitirərək ölkəmizə qayıtmış gənclərimiz də az deyildir. Xarici ölkələrin ali məktblərindən məzun olmuş vətəndaşlarımızın əksəriyyəti vətənə dönərək xaricdə aldıqları bilikləri dövlət strukturları və ölkə iqtisadiyyatının müxtəlif sahələrində uğurla tətbiq edirlər. Onların bir çoxu respublikamızın dövlət və özəl müəssisələrində, həmçinin orta və ali məktəblərində işlə təmin olunmuşlar.

Dövlətlərarası razılaşmalar əsasında Təhsil Nazirliyinin xətti ilə xarici ölkələrə təhsil almağa göndərilmiş Azərbaycan vətəndaşlarının ali təhsil haqqında sənədlərinin nostrifikasiya proseduru sektor tərəfindən çox sadələşdirilmiş şəkildə aparılır. Bunun əsas səbəblərindən biri dövlət xətti ilə təhsil almağa göndərilmiş vətəndaşlar barədə nazirlikdə xüsusi məlumat bankının olmasıdır.

Məlum olduğu kimi “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli, 429 nömrəli Fərmanı imzalanmışdır.

Həmin Fərmanın icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları” və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında 24 noyabr 2011-ci il tarixli, 191 nömrəli qərar qəbul edilmişdir.

Eyni zamanda kütləvi informasiya vasitələrinin məlumatlarından bəlli olur ki, son illər ərzində ali təhsil almaq məqsədilə xarici ölkələrə gedən vətəndaşların sayı artan dinamika üzrədir.

**II. Təhsil sənədlərinin alınması, paylanması və saxlanması üzrə.** 2011/2012-ci dərs ili üçün tədris müəssisələrinin məzunlarına veriləcək təhsil sənədlərinin çapını təmin etmək məqsədilə “Şərq – Qərb” Açıq Səhmdar Cəmiyyəti ilə **388729, 17** manat məbləğində müqavilə bağlanmışdır. 2012-ci ildə həmin müqaviləyə əsasən Xüsusi şöbənin anbarına “Şərq-Qərb” Açıq Səhmdar Cəmiyyətindən alınan təhsil sənədlərinin qaimə-fakturalara əsasən (bakalavr, magistr, mütəxəssis diplomu, attestat, şəhadətnamə, yenidənhazırlanma diplomu, akademik arayış, orta ixtisas diplomu və.s) seriyalarının **Ş** nömrələrinin ardıcıllığına və düzgünlüyünə nəzarət edilir.

Şöbə tərəfindən təhsil sənədləri barəsində ümumi hesabat hər 3 aydan bir və ildə bir dəfə, mədaxil olan təhsil sənədləri qaimə-fakturaya əsasən təhsil müəssisələrinə verildikdən sonra anbarda qalan təhsil sənədləri barədə geniş məlumat hazırlayaraq Nazirliyin mühasibat uçotu və hesabat sektoruna təqdim edilir.

İl ərzində ali və orta ixtisas müəssisələrini qiyabi və əyani bitirmiş tələbələrin diplom blanklarının alınması üçün verilmiş sənədlər (test sürətləri, digər müəssisələrdən köçürülmüş tələbələrin Nazirlik tərəfindən verilən razılıq məktubları, diplom alma haqqında əmrlər) yoxlanılır, təqdimatlar hazırlanır.

2012-ci il ərzində şöbə tərəfindən təhsil müəssisələrinə **88289** tam orta təhsil haqqında attestat, **107143** ədəd ümumi orta təhsil haqqında şəhadətnamə, **15402** ədəd orta ixtisas təhsili haqqında diplomu, **17747** ədəd bakalavr diplomu, **2119** ədəd magistr diplomu, **1518** ədəd mütəxəssis (5 illik) diplomu verilmiş və TİMS şöbəsində adlı siyahı hazırlanmışdır.

2012-ci ildə ayrı-ayrı dövlət qurumları tərəfindən Nazirliyə daxil olan məxfi sənədlər nəzarətdə saxlanılır.İl ərzində şöbəyə 15 məxfi məktub daxil olmuşdur.

Həmin sənədlər qeydiyyata alındıqdan sonra rəhbərliyə təqdim olunur, sonra isə aidiyyatı üzrə müvafiq şöbəyə aparılıb tanış edilir. Məxfi sənədlərin cavabları hazırlandıqdan sonra tam məxfi şəkildə aidiyyatı üzrə müəssisələrə göndərilir.Nazirliyə aid olan məxfi sənədlər şöbədə məxfi şəkildə və daim nəzarətdə saxlanılır.

2012-ci ildə Nərimanov Rayon Hərbi Komissarlığının 4-cü bölmə müvəkkilinin iştirakı ilə şöbədə Hərbi qeydiyyat və təxsisləmnə işinin təşkili və aparılması qaydası yoxlanılmışdır.

2012-ci ildə nazirliyin tabeliyində olan müəssisələrdə işləyən və təxsislənmiş hərbi mükəlləfiyətlilərinin sayı haqqında hesabat **(forma 6)** vaxtında hazırlanıb İqtisadi İnkişaf Nazirliyində və Nərimanov Rayon Hərbi Komissarlığında qeydiyyatdan keçməsi üçün göndərilir.

Hər il nazirlikdə çalışan əməkdaşların bronlaşdırılması və uçotu hərbi komissarlıqa yoxlanılır və nəzarətdə saxlanılır.

2012-ci ildə təhsil müəssisələri tərəfindən **820** məktub şöbəyə daxil olmuşdur, bunlardan **684** məktub icra olunmuşdur. Eyni zamanda vətəndaşlar tərəfindən Nazirliyə **585** müraciət xarakterli ərizələr daxil olmuşdurki həmin ərizələr vaxt-vaxtında araşdırılır, cavab hazırlanır və lazimi ünvanlara göndərilir.

Şöbəyə ayrı-ayrı dövlət qurumları və vətəndaşlar tərəfindən daxil olan təhsil sənədlərinin həqiqiliyi barədə müraciətlər müvafiq qaydada araşdırılır.

2012-ci ildə Şöbə tərəfindən təhsil müəssisələrinə tam orta təhsil haqqında attestat və ümumi orta təhsil haqqında şəhadətnamə blankları paylanmışdır.Təhsil şöbələrində istifadə olunmamış attestat və şəhadətnamə blankları aktlaşdırılaraq Nazirliyə geri qaytarılmış və şöbə tərəfindən müvafiq qaydada yenən anbara mədaxil edilmişdir.

2012-ci ildə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafi kurslarında kurs keçilməsi (Ali, orta ixtisas müəssisələrinə, peşə m əktəbi və liseylərinə) təşkil edilmişdir.

Nazirliyin 46-25-5076/17 saylı 20.06.2011-ci il tarixli məktubuna əsasən təhsil müəssisələrində gerbli möhürlər və künc ştampları ləğv edilməsi üçün şöbəyə təhvil verilmişdir.

2012-ci ildə tərtib edilən silinmə aktına əsasən **14** ədəd gerbli möhür, **6** ədəd dairəvi möhür və **15** ədəd künc ştampı ləğv edilmişdir.